




# Carçı

2011-ci ildən

№ 74

YANVAR/ 2026

Carçı
"ATƏŞGAH" SIĞORTA QRUPUNUN RÜBLÜK JURNALI

№ 74
YANVAR/ 2026

AtəşgahSığorta

# MÜNDƏRİCAT



## "İnnovasiyalar Mərkəzi" MMC ilə Anlaşma Memorandumu imzalandı!

səh. 03

Siz də jurnalımızın müəllifi və ya aktiv üzvü ola bilərsiniz. Özünüzü yeni sahədə sınayın!

Biz yeni fikir və təkliflərə açığıq.

İstək və təkliflərinizi elektron ünvanımıza göndərin:

**pr@ateshgah.com**

Hazırki nüsxədə əməyi keçənlər:

L. Babayeva
Ş.Həsənsoy
T. Cəfərova

"İnnovasiyalar Mərkəzi" MMC ilə Anlaşma Memorandumu imzalandı!
səh. 03

"AI Zone"da dərslər davam edir
səh. 04

Peşəkar təcrübənin gücü
səh. 05

Hər təlim bir zirvədir!
səh. 06

Gənclərlə karyera görüşləri və təcrübə paylaşımı
səh. 08

Yeni vəzifə təyinatı!
səh. 09

Əməkdaşlıqdan dostluğa
səh. 10

5 illik qalibiyyətin qüruru!
səh. 11

KASKO xəbərləri
səh. 12

Tədbirlərdə iştirak
səh. 14

Strateji görüşlər və beynəlxalq təcrübə
səh. 15

"Maraqlı faktlar" rubrikası
səh. 16

# "İnnovasiyalar Mərkəzi" MMC ilə Anlaşma Memorandumu imzalandı

Uğurlu inkişaf strategiyası və innovativ yanaşmaları ilə seçilən "Atəşgah" Sığorta Şirkəti tərəfdaşlıq əlaqələrini daha da genişləndirərək yeni uğurlara imza atmaqda davam edir. Şirkətimiz bu dəfə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən "İnnovasiyalar Mərkəzi" MMC ilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıb. Bu əməkdaşlıq sığorta sektorunda innovasiyaların təşviqinə, gənclərin bilik və bacarıqlarının artırılmasına, həmçinin sosialyönümlü layihələrin həyata keçirilməsinə mühüm töhfə verməyi hədəfləmişdir.




Sənədi "Atəşgah" Sığorta Şirkəti ASC-nin İdarə Heyətinin sədri Elçin Əhmədov və "İnnovasiyalar Mərkəzi" MMC-nin direktoru Vüsal Rüstəmov imzalayıblar. Memorandum çərçivəsində tərəflər innovativ yanaşmaların təşviqi, maarifləndirici və sosialyönümlü layihələrin həyata keçirilməsi, eyni zamanda tələbə və gənclər üçün təcrübə proqramlarının təşkilində əməkdaşlıq edəcəklər. Xüsusilə qeyd edilməlidir ki, Memorandumun mühüm komponentlərindən biri də "Atəşgah" Sığorta Şirkətinin təşəbbüsü ilə ASAN İnnovativ İnkişaf Mərkəzində yaradılan və gənclər üçün ödənişsiz sığorta təlimlərin keçiriləcəyi "AI Zone" otağının fəaliyyətə başlaması oldu.

Layihə çərçivəsində atılan bu addım, gənclərin sığorta sahəsində maariflənməsi və təlimlərdə fəal iştirakı üçün əhəmiyyətli imkanlar yaratmaqla yanaşı, Avtonəqliyyat vasitəsi sahiblərinin məsuliyyətinin icbari sığortası və Daşınmaz əmlakın icbari sığorta növləri üzrə sığorta hadisələrinin qarşısının alınmasında dəstək göstərməyi hədəfləyir.



# “AI Zone”da dərslər davam edir



“Atəşgah” Sığorta Şirkəti  və “İnnovasiyalar Mərkəzi” MMC arasında imzalanan Memorandum çərçivəsində oktyabr ayından etibarən ASAN İnnovativ İnkişaf Mərkəzində yaradılmış “AI Zone”da dərslər fəaliyyətə başlayıb. Beynəlxalq Müəllimlər Günü münasibətilə keçirilən ilk praktiki seminar süni intellekt mövzusuna həsr olundu. Seminar çərçivəsində Həyat sığortası məhsullarının satışı şöbəsinin baş mütəxəssisi Ramin Nəsirov, şirkətin təqdim etdiyi məhsullar haqqında ətraflı məlumat verdi və iştirakçıların suallarını cavablandırdı. Tədbirin sonunda, müəllimlərə sertifikatlar təqdim olundu. Bu təşəbbüsün müəllimlərin peşəkar inkişafına dəstək olacağı ilə yanaşı, süni zəka texnologiyalarının təhsil sahəsində tətbiqinə də böyük imkanlar yaradacağına inanırıq. Memorandum çərçivəsində fəaliyyət göstərən “AI Zone”da növbəti təlimlər uğurla davam etdirildi. Belə ki, 27 oktyabr tarixində Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Kənan Cəfərov şagirdlərlə keçirdiyi təlimdə sığorta anlayışını, təcili və təxirəsalınmaz hallar üzrə əsas məqamları, eləcə də real həyatdan götürülən nümunələr əsasında sığortanın əhəmiyyətini geniş şəkildə izah edib. Avtosalonlarla iş şöbəsinin müdiri Tural Kələntərli tərəfindən keçirilən dərs isə iştirakçılar tərəfindən xüsusi maraqla qarşılandı. Təlim zamanı şagirdlərə sığortanın mahiyyəti, həmçinin təcili və təxirəsalınmaz vəziyyətlərdə onun rolu barədə ətraflı məlumat verildi. Fəal müzakirələr və suallar dərsin interaktivliyini artırıb. Mərkəzdə yaradılmış xüsusi tədris mühiti şagirdlərə süni zəka alətlərini praktiki şəkildə öyrənmək və sınaqdan keçirmək imkanı təqdim edib.












“AI Zone”da keçirilən digər təlimlərdə isə Avtosalonlarla iş şöbəsinin əməkdaşları Sevil Quluzadə və Nicat Qəhrəmanov şagirdlərlə sığorta sahəsi, risklərin idarə edilməsi və şirkətin təqdim etdiyi məhsullar barədə ətraflı məlumat paylaşdılar. Bu dərslərin əsas məqsədi süni zəka bacarıqlarını gənclər üçün əlçatan etmək, onların həm texnoloji, həm də praktiki biliklərini inkişaf etdirməkdir.

# Peşəkar təcrübənin gücü

Əməkdaşların peşəkar inkişafının təmin edilməsi və sığorta sahəsində biliklərinin artırılması məqsədilə “Atəşgah Həyat” Sığorta Şirkətinin Direktorlar Şurasının sədri Namiq Xəlilovun rəhbərliyi ilə ardıcıl və sistemli şəkildə təşkil olunan təlimlər 4-cü rüb ərzində də öz aktuallığını qoruyub saxlamışdır. Son aylarda keçirilmiş bir neçə mühüm təlim və təşəbbüs bu baxımdan xüsusilə qeyd olunmağa layiqdir.
İlk olaraq, satış şöbələrinin rəhbərləri və baş mütəxəssislər üçün “Təkrarsığorta – nə üçün lazımdır və necə işləyir?” mövzusunda təlim keçirildi. Təlimə şəxsən rəhbərlik edən Namiq Xəlilov iştirakçılara beynəlxalq təcrübələr əsasında təkrarsığortanın mahiyyəti, risklərin bölüşdürülməsi və bu mexanizmin sığorta bazarında rolu haqqında dərin və əhatəli məlumatlar təqdim etdi. Təlim, iştirakçıların praktik biliklərini artırmaq və onların gündəlik fəaliyyətlərində bu bilikləri tətbiq etmələrini təmin etmək baxımından böyük əhəmiyyət daşıyıb.Daha sonra şirkətdə ilk dəfə olmaqla “Sığortanın iqtisadiyyatı” mövzusunda genişmiqyaslı təlim təşkil olundu. Təlim zamanı  iştirakçılara sığorta şirkətinin iqtisadi ekosistemini formalaşdıran əsas prinsiplər barədə ətraflı məlumat verilib. Eyni zamanda, gəlir və xərclərin idarə olunması, sığorta ehtiyatları, investisiya fəaliyyəti, kapital və maliyyə hesabatlılığı kimi vacib mövzular müzakirə olundu. Bu təşəbbüs daxili peşəkar bilik mühitinin yaradılması və əməkdaşların sığortanın maliyyə əsaslarını dərindən qavraması üçün mühüm platforma oldu.






Əməkdaşların karyera inkişafını dəstəkləmək istiqamətində həyata keçirilən digər  mühüm təşəbbüs isə 21 aprel 2025-ci il tarixində start verilmiş “Sığortanın əsasları” təlim proqramıdır. Proqram çərçivəsində növbəti imtahanda uğur qazanan əməkdaşlara 16 oktyabr 2025-ci il tarixində şirkət rəhbərliyi tərəfindən sertifikatlar təqdim olundu.
Namiq Xəlilovun rəhbərliyi ilə daha bir uğurlu layihə də həyata keçirildi. Belə ki, şirkətimizdə ilk dəfə olaraq süni intellekt texnologiyalarından istifadə etməklə “Sığortanın əsasları” mövzusunda innovativ təlim təşkil olundu. Müasir yanaşmalar və qabaqcıl texnologiyalar üzərində qurulan bu təlim, əməkdaşların sığorta sahəsində fundamental biliklərinin möhkəmləndirilməsi ilə yanaşı, süni intellektin tədris prosesinə inteqrasiyasının real nümunəsi kimi böyük maraqla qarşılandı.
Bütün bu təşəbbüslər şirkətimizdə  peşəkar inkişafın və davamlı təlim mədəniyyətinin gücləndirilməsinə verilən böyük önəmin bariz nümunəsidir.







# Hər təlim bir zirvədir!

Şirkətimiz tərəfindən  əməkdaşların peşəkar bacarıqlarını gücləndirməyə yönəlmiş inkişaf proqramları uğurla davam etməkdədir. Bu çərçivədə müxtəlif təlim təşəbbüsləri həyata keçirilmiş, həm rəhbər heyət, həm də ixtisaslaşmış komanda üzvləri üçün geniş imkanlar yaradılmışdır.

26 sentyabr tarixində ICE Academy ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən “Liderin İnkişaf Proqramı” rəhbər vəzifələrdə çalışan əməkdaşların strateji idarəetmə, liderlik və qərarvermə bacarıqlarının inkişafına yönəlmişdir. Təlimin əsas məqsədi rəhbərlərin idarəetmə səriştələrini gücləndirmək və komanda idarəetməsində müasir yanaşmaların tətbiqinə şərait yaratmaq idi. Proqramı uğurla başa vuran əməkdaşlar sertifikatlarla təltif olundular. Əldə edilən yeni biliklərin onların gündəlik fəaliyyətinə, komanda inkişafına və karyera yoluna dəyər qatacağına əminik.










10 oktyabr tarixində İnsan resursları komandası və Tibbi yardımın təşkili şöbəsi Azərbaycan Dövlət Tibb Universitetinin təmsilçiləri ilə görüş keçirmişdir. Görüşdə universitet məzunlarının işə qəbul imkanları, karyera inkişafı və əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur. Həmçinin, qonaqlar şirkətin iş mühiti ilə də yaxından tanış oldular.






Bundan əlavə, 14–28 oktyabr tarixlərində ASA Tədris Mərkəzi tərəfindən sığorta şirkətlərinin əməkdaşları üçün “Əmək qanunvericiliyi və kadr işinin təşkili” mövzusunda 20 saatlıq təlim proqramı təşkil olunmuşdur. Tanınmış təlimçi Rauf Məmmədovun təqdim etdiyi təlimdə ümumilikdə 14 iştirakçı, o cümlədən İnsan resurslarının idarə edilməsi şöbəsinin əməkdaşı Günay Həsənova iştirak edərək öz peşə biliklərini daha da təkmilləşdirmişdir. Sonda təlimi tamamlayan bütün iştirakçılara sertifikatlar təqdim olundu.



Əməkdaşların inkişafına yönəlmiş tədbirlər çərçivəsində növbəti təlim mərhələsi də uğurla həyata keçirilmişdir. Peşəkar biznes-təlimçi Elçin Rəşid tərəfindən aparılan sessiyalar “Komanda idarəçiliyi” və “Nəticə əsaslı idarəçilik” mövzularını əhatə edib. Proqramın məqsədi nəticəyönümlü qərarvermə bacarıqlarını gücləndirmək və əməkdaşların peşəkar inkişaflarını artırmaqdan ibarət olmuşdur.









Şirkətdə peşəkar inkişaf təşəbbüsləri çərçivəsində həyata keçirilən daha bir mərhələ isə “Develor” şirkətinin təşkil etdiyi Lider İnkişaf Proqramı olmuşdur. Rəhbər komanda üzvləri bu proqramda iştirak edərək nəzəri bilikləri praktik tətbiqlərlə birləşdirmək imkanı əldə etmişlər. Təlimi uğurla tamamlayan bütün əməkdaşlar sertifikatlarla təltif olunmuşdur.



İnnovativ yanaşmaların təşviqi məqsədilə 31 oktyabr tarixində şirkətimizdə ilk dəfə olaraq “Mindfront” formatında debatlar təşkil edilmişdir. Debat müasir dövrün ən aktual mövzularından birinə – “Dövlətin strateji qərarlarında süni intellekt insan faktorundan üstün tutulmalıdırmı?” sualına həsr olunmuşdur. Bu intellektual müzakirə iştirakçılara analitik düşünmə və qərarvermə prosesinə müxtəlif baxış bucaqlarından yanaşma imkanı yaratmışdır.







# Gənclərlə karyera görüşləri və təcrübə paylaşımı

*"Atəşgah" Sığorta gənclərin peşəkar inkişafını və karyera yolunu dəstəkləmək məqsədilə oktyabr ayında bir sıra görüşlər keçirib.*

29 oktyabr tarixində əməkdaşlarımız — proqram təminatı üzrə mütəxəssis Zakir Rəhimli və işə qəbul üzrə aparıcı mütəxəssis Nadirə Məmmədova Bakı Dövlət Universitetində keçirilən Rəqəmsal sahə üzrə karyera sərgisində tələbələrlə bir araya gəliblər. Görüş zamanı gənclərə CV-nin düzgün hazırlanması, İT sahəsində karyeraya başlama yolları və rəqəmsal bacarıqların inkişafı ilə bağlı praktik məlumatlar təqdim edilib. Tələbələrin sualları və marağı bir daha göstərdi ki, gələcəyin texnoloji mütəxəssisləri artıq bu gün yetişir.





Bundan əlavə, HR komandamız Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) BA proqramlarında təhsil alan II kurs "İqtisadiyyat" ixtisası tələbələri ilə görüş keçirdilər. Görüş "Human Resource Management" fənni çərçivəsində hazırlanmış "Employee Motivation and Retention Strategies" layihəsi əsasında təşkil olunmuşdur. Tələbələr şirkətdə real iş mühiti və insan resursları idarəçiliyinin praktiki tərəfləri ilə tanış oldular.






Gənclərlə əməkdaşlıq təşəbbüsləri çərçivəsində növbəti tədbir 11 dekabr tarixində Bakı Mühəndislik Universitetində təşkil olunmuşdur. "Bakı Mühəndislik Universiteti Karyera Həftəsi 2025" çərçivəsində keçirilən "İqtisadiyyat və İdarəetmə Fakültəsi Karyera Sərgisi və Alumni Paneli" adlı tədbir olmuşdur. Əməkdaşlarımız Nadira Məmmədova və Nəzrin İsmayılovanın iştirak etdiyi tədbirdə sərgi iştirakçılarına "Atəşgah" Sığorta Şirkətinin fəaliyyəti barədə ətraflı məlumat verilmişdir. Həmçinin mövcud və aktiv vakansiyalar, eləcə də işə qəbul prosesi haqqında məlumat təqdim olunmuş, tələbələrin sualları cavablandırılmışdır






*Baş tutmuş bütün bu tədbirlər gənclərin peşəkar bacarıqlarının inkişafına dəstək olmaq, onlara real iş təcrübəsini çatdırmaq və gələcək karyera imkanlarını göstərmək baxımından böyük əhəmiyyət kəsb etmişdir.*

# Yeni vəzifə təyinatı!



"Atəşgah Həyat" Sığorta Şirkəti ASC-də növbəti struktur dəyişikliyi həyata keçirilmişdir. Yeni qəbul olunmuş qərara əsasən, İsgəndərova Könül Elman qızı Direktorlar Şurasının üzvü vəzifəsinə seçilmişdir.

Könül İsgəndərova bu təyinatadək "Atəşgah" Sığorta Şirkəti ASC-də Biznesin İnkişafı üzrə Direktor vəzifəsində çalışmış və şirkətin inkişafında fəal rol oynamışdır.

Yeni vəzifə təyinatı münasibətilə Könül xanımı səmimi qəlbdən təbrik edir, ona yeni vəzifəsində uğurlar və peşəkar nailiyyətlər arzu edirik!

# Əməkdaşlıqdan dostluğa

Son aylar əməkdaşlarımız üçün həm komanda ruhunu möhkəmləndirən, həm də birlik və qarşılıqlı etimadı gücləndirən silsilə tədbirlərlə yadda qaldı. Bu təşəbbüslər əməkdaşlıqdan dostluğa uzanan əlaqələri daha da gücləndirərək şirkətin korporativ mədəniyyətini canlı şəkildə əks etdirdi. Oktyabrın 13-də  Çağrı Mərkəzi, Tibbi Yardımın Təşkili və Tibbi Ekspertiza şöbələrinin əməkdaşları İçərişəhərin özünəməxsus atmosferində təşkil olunan maraqlı kvest oyununda iştirak etdilər. Tədbir komandadaxili ünsiyyəti gücləndirməklə yanaşı, əməkdaşlara bir-birlərini daha yaxından tanımaq və İçərişəhərin zəngin tarixi və memarlığı ilə tanış olmaq imkanı yaratdı. Komanda ruhunun və birlik hissinin davamı olaraq, 18 oktyabr – Müstəqilliyin Bərpası Günündə şirkətin rüb ərzində seçilmiş əməkdaşları bu əlamətdar tarixi birlik və qürur hissi ilə qeyd etdilər. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başladı, ardınca İçərişəhərin tarixi fonunda səhər yeməyi təşkil olundu. Günün ən yaddaqalan məqamı isə “Old City Quest” adlı əyləncəli və maarifləndirici oyun oldu. Əməkdaşlar tarixi küçələr boyunca tapşırıqları yerinə yetirərək komanda işi və  çevik düşüncə  bacarıqlarını nümayiş etdirdilər.







Bu birlik və fəallıq ruhu noyabrın 16-da keçirilən komanda quruculuğu tədbirində də davam etdi. HR komandası korporativ satış şöbələrinin və satış prosesinə dəstək verən bölmələrin iştirakı ilə Nabrandakı meşə ərazisində xüsusi proqram təşkil etdi. “Orienteering” formatında keçirilən bu tədbir əməkdaşların fiziki dözümlülük, koordinasiya və strateji qərarvermə bacarıqlarını sınamaqla yanaşı, komandalar arasında qarşılıqlı etimadı daha da möhkəmləndirdi.
Bu mərhələnin yekunu isə sağlam rəqabət və birlik ruhunun idman meydanında təcəssümü ilə yadda qaldı. Dekabrın 19-da şirkətdaxili futbol çempionatının final oyunu keçirildi. Böyük maraqla izlənilən qarşılaşmada Korporativ və AtəşStar komandaları üz-üzə gəldi. Gərgin mübarizə şəraitində keçən oyunda Korporativ komandası 7:2 hesabı ilə qalib gəldi. Çempionatın yekun nəticələrinə əsasən birinci yerə Korporativ komandası, ikinci yerə AtəşStar komandası, üçüncü yerə isə Tənzimləmə komandası layiq görüldü.








# 5 illik qalibiyyətin qüruru!



Hər bir azərbaycanlı üçün Zəfər Günü yalnız tarixi qələbənin deyil, həm də milli birliyin, vətənpərvərliyin və xalqın iradəsinin rəmzidir. Şəhid və qazilərimizin fədakarlığını, torpaqlarımızın azadlığını qürurla xatırladığımız əlamətdar günün 5-ci ildönümü bu il xüsusi əhəmiyyət kəsb etdi. Bu gün, “Atəşgah” Sığorta Şirkəti tərəfindən də böyük qürurla qeyd olundu. Belə ki, şirkətimizin təşəbbüsü ilə Zəngilan rayonunun Ağalı kəndində genişmiqyaslı ağacəkmə aksiyası keçirildi. Korporativ sosial məsuliyyət layihəsi çərçivəsində xeyli sayda şam və çinar tingləri əkilərək, işğaldan azad edilmiş torpaqlarda yaşıllıqların artırılmasına, təbiətin bərpasına və sağlam ekoloji mühitin formalaşmasına töhfə verildi. Zəfərimizin 5-ci il dönümü ilə əlaqədar Baş ofisdə də təntənəli tədbir təşkil edildi.
Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olundu, daha sonra vətən uğrunda canlarını fəda etmiş Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. 44 günlük Vətən müharibəsi iştirakçıları, Birinci Qarabağ müharibəsi veteranları və döyüşlərdə iştirak etmiş şirkət əməkdaşları çıxışlarında müharibə illərində keçdikləri sınaqlardan, eləcə də bu gün azad və qalib ölkənin vətəndaşları olmaqdan duyduqları qürur hissindən söz açdılar. Belə tədbirlər “Atəşgah”ın vətənə və xalqa bağlılığını, eləcə də vətənpərvərlik və milli-mənəvi dəyərlərə verdiyi yüksək önəmi nümayiş etdirir.







# KASKO *xəbərləri*

*Hörmətli oxucular,*

2025-ci ilin 4-rübündə Kasko məhsulu üzrə həyata keçirilən “Yapon Ayı” və “Visa Aksiyası“ ilə müştərilərinə xüsusi fürsətlər təqdim etdi. Tətbiq olunan aksiyalar Kasko məhsulunun satış dinamikasına müsbət təsir göstərdi. Əldə edilən nəticələr əməkdaşlarımızın peşəkarlığını və komandamızın yüksək əmək qabiliyyətini bir daha təsdiqlədi. Yüksək aktivlik və təşəbbüskarlıq nümayiş etdirən əməkdaşlarımızın uğurlu fəaliyyəti kampaniyaların ümumi uğurunda mühüm rol oynadı.






Əməkdaşlarımızın səyi və əzmkarlığı sayəsində görülmüş işlər faydalı və müsbət nəticələr verdi. Şübhəsiz ki, qazanılan uğurlarda hər birimizin payı var. Lakin kampaniya müddətində göstərdikləri fəallığa görə seçilən əməkdaşlarımıza xüsusi təşəkkür etmək istərdik. Onların zəhməti və çalışqanlığı komandanın ümumi uğuruna töhfə verdi. İndi isə gəlin, bu müvəffəqiyyətə imza atan həmkarlarımızı birlikdə tanıyaq:

## "Yapon Ayı" aksiyasının çempionu



Fatimə Eyvazova
Avtosalonlarla iş şöbəsi

1-ci yer

## "Visa Aksiyası"nın çempionu



Ruslan Əliyev
Pərakəndə satışların inkişafı departamenti

## 2025-ci il üzrə fiziki şəxslərə KASKO satışında fərqlənən əməkdaşlar



Ruslan Əliyev
Pərakəndə satışların inkişafı departament
292 müqavilə



Aytac Abdıyeva
Telemarketinq
160 müqavilə



Ceyran Hənifəyeva
Telemarketinq
126 müqavilə



Fərqanə Qənbərova
Telemarketinq
106 müqavilə



Günel Əmirova
Pərakəndə satışların inkişafı departamenti
91 müqavilə

**2025-ci il üzrə şöbə və departamentlərin ümumi icra göstəriciləri**

01 Pərakəndə satışların inkişafı departamenti – 129%

02 Regional satış şöbəsi – 54%

03 Mühüm müştərilərlə iş şöbəsi – 106%

04 Kiçik və orta biznesin sığortası departamenti – 69%

05 Telemarketinq şöbəsi – 65%

06 Partnyor satışlarının inkişafı departamenti – 54%

07 Ümumi yerinəyetirmə - 72%

# Tədbirlərdə iştirak

2025-ci ilin son rübü ərzində "Atəşgah" Sığorta Şirkətinin rəhbər heyəti və əməkdaşları ölkə səviyyəsində keçirilən bir sıra mühüm forum və tədbirlərdə fəal iştirak edərək sığorta, rəqabət, kommunikasiya, rəqəmsal transformasiya və insan kapitalının inkişafı istiqamətlərində təcrübə mübadiləsi aparıblar.
Bu çərçivədə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin təşkilatçılığı ilə keçirilən II Milli Rəqabət Forumunda müasir rəqabət çağırışları, rəqabət siyasətinin iqtisadi inkişafdakı rolu və təbii inhisarların tənzimlənməsi mövzuları ətrafında geniş müzakirələr aparılıb. Forumda şirkəti Ramin Nəsirov və Aysel Quliyeva təmsil ediblər.
Daha sonra diqqət ictimai etibar sahəsinə yönəldi. Belə ki, oktyabrın 10-da Yelo Bank və Finance Time-ın birgə təşkilatçılığı ilə keçirilən "PR Forum 2025"də dayanıqlı sosial məsuliyyət, brend etibarı və dezinformasiya mövzularında fikir mübadiləsi aparılıb. Tədbirdə Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin PR mütəxəssisi Şəbnəm Həsənsoy iştirak edib.
Bununla yanaşı, sığorta sektorunda innovasiya və texnologiyaların artan rolu regional miqyasda da müzakirə mövzusuna çevrilib. 28 oktyabr tarixində keçirilən Türk Dövlətləri InsurTech Sammiti 2025 çərçivəsində rəqəmsal transformasiya, süni intellekt, məlumat idarəetməsi və kibertəhlükəsizlik mövzuları ön plana çıxıb. Sammitdə "Atəşgah" və "Atəşgah Həyat" Sığorta Şirkətlərinin rəhbər heyəti iştirak edib.











Texnoloji inkişafların insan kapitalına təsiri isə növbəti tədbirlərin əsas mövzusu olub. 15 noyabrda Bakı KOB İnkişaf Mərkəzində keçirilən "Data Bridge" Forumunda Nazənin Qarayeva HR analitika mövzusunda çıxış edərək qərarvermə proseslərində məlumat əsaslı yanaşmanın əhəmiyyətini vurğulayıb.
Bundan əlavə, 28 noyabr tarixində AmCham Azerbaijan Bank, Maliyyə və Sığorta (BFI) Komitəsinin təşkilatçılığı ilə "Bank və sığorta sektorlarının inteqrasiyası – Bancassurance modeli üzrə əməkdaşlıq imkanları" mövzusunda tədbir keçirilib. Tədbirdə "Atəşgah Həyat" Sığorta Şirkətinin İdarə Heyətinin sədri Azər Əliyev və İdarə Heyətinin üzvü, Partnyor Satışlarının İnkişafı Departamentinin direktoru Şəfəq Həsənova iştirak ediblər. Panel müzakirələri çərçivəsində Azər Əliyev "Sığorta sektorunun baxışı" mövzusunda çıxış edərək aktual trendlər, çağırışlar və inkişaf perspektivləri barədə öz fikirlərini bölüşüb. Onun təqdimatı tədbir iştirakçılarının böyük marağına səbəb olub.
2 dekabr 2025-ci ildə ASAN AI Hub platformasının təqdimat mərasimində süni intellekt sahəsində dövlət və özəl sektor əməkdaşlığının gücləndirilməsi məsələləri diqqət mərkəzində olub. Tədbirdə "Atəşgah" Sığorta Şirkətini İnformasiya texnologiyaları və biznes proseslərinin optimizasiyası üzrə direktor müavini Azər Əsgərov və Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Leyla Babayeva təmsil ediblər.
Ardınca, 3 dekabrda Four Seasons Hotel Baku-da keçirilən HR üzrə Süni Zəka Təlimində HR proseslərində süni zəkanın tətbiqi, yeni yanaşmalar və gələcək yol xəritələri müzakirə olunub. Tədbirdə İnsan kapitalının inkişafı üzrə layihə rəhbəri Vüqar Hüseynli və Partnyor satışların inkişafına dəstək üzrə ekspert İstimas Niftəliyeva iştirak ediblər.
İlin sonuna yaxın isə diqqət birbaşa sığorta sektorunun inkişaf mexanizmlərinə yönəlib. 15 dekabr 2025-ci il tarixində ilk dəfə təşkil olunan "Sığorta Agentləri və Vasitəçiləri Forumu"nda agent və vasitəçilərin fəaliyyəti, peşə bacarıqlarının artırılması və sektorun gələcək perspektivləri müzakirə edilib. Forum çərçivəsində "Atəşgah Həyat" Sığorta Şirkətinin İdarə Heyətinin sədri Azər Əliyev panel çıxışı ilə iştirak edib, həmçinin şirkətin rəhbər heyəti tədbirdə geniş tərkibdə təmsil olunub.













# Strateji görüşlər və beynəlxalq təcrübə

Həm ölkədaxili, həm də beynəlxalq miqyasda təşkil olunan mühüm tədbirlərdə mütəmadi və fəal iştirak etməyə xüsusi önəm verir. Bu platformalar vasitəsilə təcrübə mübadiləsinin genişləndirilməsi, qabaqcıl yanaşmaların öyrənilməsi və strateji əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi əsas prioritetlərimizdəndir. Mötəbər tədbirlərdən əldə olunan bilik və beynəlxalq təcrübə şirkətimizin davamlı inkişafına mühüm töhfə verir.

14–16 oktyabr tarixlərində Strateji müştərilər və beynəlxalq brokerlərlə iş şöbəsinin müdiri Ülviyə Abdiyeva Mərakeşdə keçirilən UIB Energy & Construction (Re)Insurance Conference 2025 beynəlxalq konfransında iştirak etmişdir. Tədbir çərçivəsində enerji, tikinti və sığorta sahələrində qabaqcıl yanaşmalar, innovativ risklərin idarə olunması modelləri və davamlı inkişaf istiqamətləri üzrə geniş fikir mübadiləsi aparılmışdır.

19–23 oktyabr tarixlərində Almaniyanın Baden-Baden şəhərində keçirilən Baden-Baden Təkrarsığorta Görüşündə isə şirkətimiz geniş nümayəndə heyəti ilə təmsil olunmuşdur. Tədbirdə "Atəşgah Həyat" Sığorta Şirkətinin Direktorlar Şurasının sədri Namiq Xəlilov, İdarə Heyəti sədrinin müavini Orxan Şirinli, Əmlak sığortası üzrə anderraytinq və təkrarsığorta şöbəsinin müdiri Şəbnəm Bəşirova, aparıcı anderrayter Nuranə Allahverdi və Strateji müştərilər və beynəlxalq brokerlərlə iş şöbəsinin müdiri Ülviyə Abdiyeva iştirak etmişdir. Görüşlər çərçivəsində 60-dan çox aparıcı sığorta, təkrarsığorta və beynəlxalq broker şirkətləri ilə məhsuldar müzakirələr aparılmış, yeni əməkdaşlıq və tərəfdaşlıq imkanları dəyərləndirilmişdir.
Noyabr ayında isə şirkətimizin nümayəndə heyəti yük daşımaları üzrə sığorta mexanizmlərinin öyrənilməsi məqsədilə Türkiyənin aparıcı sığorta şirkətlərindən biri olan HDI Insurance şirkətinə işgüzar səfər etmişdir. Alman sığorta qrupuna daxil olan HDI Insurance yük sığortası sahəsində Türkiyə bazarının ən qabaqcıl şirkətlərindən biri hesab olunur.









"Atəşgah" Sığorta Şirkətini Əmlak sığortası növləri üzrə zərərlərin tənzimlənməsi departamentinin direktor müavini Nigar Yarməmmədova, Mühüm müştərilərlə iş üzrə 2-ci şöbənin müdiri İlkin Qasımov və Əmlak sığortası növləri üzrə anderraytinq və təkrarsığorta şöbəsinin aparıcı mütəxəssisi Tofiq Zeynallı təmsil etmişdir. Səfər zamanı nümayəndə heyəti HDI Insurance şirkətində satış, anderraytinq və zərərlərin tənzimlənməsi sahələrində tətbiq olunan qabaqcıl təcrübə və yanaşmalarla yaxından tanış olmuşdur. Görüşlər qarşılıqlı əməkdaşlığın inkişafı və bilik mübadiləsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Tərəflər gələcəkdə əməkdaşlığın genişləndirilməsi və HDI Insurance şirkətinin nümayəndələrinin Bakıya dəvət olunması barədə razılığa gəlmişlər.










# "Maraqlı faktlar" rubrikası

Bu dəfə "Carçı" korporativ jurnalının "Maraqlı faktlar" rubrikası oxuculara Zəfər Gününün 5-ci ildönümü ilə bağlı maraqlı faktlar təqdim edir. Bu materiallar Azərbaycan xalqının sarsılmaz milli iradəsini, Ordumuzun qüdrətini və əsgərimizin nümayiş etdirdiyi yüksək qəhrəmanlıq nümunələrini əks etdirir.



## *Müharibə cəmi 44 gün davam etdi*

2020-ci il 27 sentyabr tarixində başlayan Vətən müharibəsi cəmi 44 gün çəkdi və bu müddətdə Azərbaycan Ordusu 300-dən çox yaşayış məntəqəsini işğaldan azad etdi.

## *Şuşanın azad olunması müharibənin taleyini həll etdi*

8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi müharibənin dönüş nöqtəsi oldu. Şuşa yüksək strateji mövqeyə malik olduğundan bu hadisə Ermənistan ordusunun müqavimətini faktiki olaraq sındırdı.






## *Müharibədə pilotsuz uçuş aparatları həlledici rol oynadı*

Azərbaycan Ordusu  ilk dəfə  pilotsuz uçuş aparatlarından sistemli və genişmiqyaslı istifadə etdi. Xüsusilə "Bayraktar TB2", "Harop" və "Orbiter" PUA-ları döyüş əməliyyatlarında mühüm rol oynadı. PUA-ların dəqiq zərbələri nəticəsində Ermənistan ordusunun hava hücumundan müdafiə sistemləri, tankları və artilleriyası sıradan çıxarıldı.

## *Ermənistan Ordusu ciddi texnika itkisi verdi*

Müharibə zamanı Ermənistan ordusu 300-dən çox tank və zirehli texnika, 150-dən çox artilleriya qurğusu, onlarla HHM sistemi itirdi.





## *Azərbaycan Ordusu mülki əhalini hədəf almadı*

Beynəlxalq müşahidəçilər və müharibə sonrası hesabatlar təsdiqləyir ki, Azərbaycan Ordusu mülki infrastruktura qarşı məqsədli hücumlar həyata keçirmədi. Əksinə, Ermənistan ordusu Gəncə, Bərdə, Tərtər kimi şəhərləri raket atəşinə tutdu.hücumundan müdafiə sistemləri, tankları və artilleriyası sıradan çıxarıldı.



## Azərbaycan əsgərləri dağlıq əraziləri piyada keçdi

Şuşa əməliyyatı zamanı xüsusi təyinatlılar ağır relyefli, meşəlik və qayalı əraziləri yüngül silahlarla və piyada aşaraq hücum etdilər. Bu əməliyyat hərb tarixində unikal sayılır.

## Prezident İlham Əliyevin müsahibələri informasiya cəbhəsində həlledici rol oynadı

Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin CNN, BBC, Al Jazeera, France 24 və digər nüfuzlu beynəlxalq televiziya kanallarına verdiyi çoxsaylı müsahibələr informasiya cəbhəsində mühüm üstünlük yaratdı.






## Müharibədən sonra mina problemi dünyanın diqqətinə çatdırıldı

Azad edilmiş ərazilərdə minlərlə mina aşkarlandı. Ermənistanın mina xəritələrini verməməsi beynəlxalq təşkilatlar tərəfindən də tənqid edildi.

## Əsgərlərin fiziki dözümlülüyü həlledici oldu

Bəzi döyüş istiqamətlərində əsgərlər gündə 20–30 kilometrə yaxın piyada yol qət edirdi. Bu, yüksək fiziki və psixoloji hazırlığın göstəricisi idi. Hücumundan müdafiə sistemləri, tankları və artilleriyası sıradan çıxarıldı.



# "Atəşgah" Sığorta Qrupunun Himni

Biz, inama doğru,
Nurlu sabaha yol gedirik.
Və işığa doğru,
Xoş gələcəyə biz baxırıq.
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

Nəqarət:
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə, Arxayın yaşa!

Biz, inama doğru
Nurlu sabaha yol gedirik
Və işığa doğru
Xoş gələcəyə biz baxırıq
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

Nəqarət:
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə,
Arxayın yaşa!